Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# ADBTİA-da xarici dilin kommunikativ yönümlü tədrisində yazı

*K.B.Qurbanova*[1]

[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** yazı prosesi, yazı tapşırıqları, mərhələlər, bacarıqlar

Xarici dil dərslərində yazı dinləmə və danışığın genişləndirilmiş formada, xüsusi qaydalara tabe olan praktikası kimi dəyərləndirilir. Çünki öyrənən həmin dili şifahi formada başa düşməli, onu qavramalı və istifadə edə bilmək qabiliyyətlərinə yiyələndikdən sonra yazı prosesinə başlanmalıdır.Yazı bacarıqlarının formalaşdırılması digər dil bacarıqlarına nisbətən daha çətin və nisbətən uzun vaxt tələb edir. Yazı əsasən öyrənmənin son mərhələsində həyata keçirilir və bir qədər səriştə, professionallıq tələb edir. Araşdırmalar göstərir ki, xarici dil dərslərində yazıya son zamanlar bir o qədər də önəm verilmir, dərslər əsasən danışığın öyrədilməsi, dinləyib anlama şəklində qurulur. Lakin yazının istifadə edilməməsi dili tam öyrənməyə mane olur və bu da özlüyündə digər bacarıqların mənimsənilməsinə mane olur. Bu məqsədlə 2016-2017-ci tədris ilindən etibarən Akademiyada ingilis dili dərslərini tələbələrə oxu, danışıq, dinləmə və yazı bacarıqlarının hər birini paralel olaraq inkişaf etdirən “Speak Out” dərsliyindən istifadə edərək tədris edirik.

Dərs prosesində yazının tədrisi yazı tapşırıqları vasitəsilə möhkəmləndirilir və bu tapşırıqlar 2 formada həyata keçirilir.

1. Öyrənmək üçün yazmaq – hər hansı qrammatik qaydanın öyrədilməsi üçün yazılan tapşırıqlar;
2. Yazı üçün yazmaq – esse yazmaq, hekayə yazmaq, şeir yazmaq və s. [1].

Xarici dil dərslərində müəllim yazının mənimsənilməsini yoxlamaq üçün əvvəlcədən müəyyənləşdirilmiş məqsəddən asılı olaraq 2 fərqli yanaşma nümayiş etdirir;

a) Dərs zamanı müəllim sırf yazı prosesinə deyil, yazı zamanı istehsal edilən məhsula, yəni yazılan materiala və verilmiş tapşırığın nəticəsinə diqqəti yönəldir;

b) Dərs zamanı müəllim sırf yazının mərhələlərini əsas götürür və yazılan yazının məzmunu o qədər də əhəmiyyətli olmur. Əsas diqqət yazının mərhələlərindən düzgün istifadəyə yönəldilir. [2].

ADBTİA-da xarici dil dərslərində yazının tədrisi yuxarıda qeyd edilən dərsliyin köməyi ilə model əsasında yazı (Modelled writing) növündən başlayır. Bu yazı növünün tələbələrə öyrədilməsi zamanı müvəffəqiyyətli olmaq üçün hər bir tələbəyə fərdi olaraq öyrədilməli olan xüsusi pillələr mövcuddur.

Yazı tapşırıqlarının seçilməsi zamanı əsas kriteriyaları aşağıdakı kimi ümumiləşdirə bilərik.

a) Maraq – tapşırıq stimulverici və motivasiyaedici olmalı;

b) Səviyyə - tapşırığın dili qrupun dil səviyyəsinə uyğun olmalı;



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

c) Uyğunluq – ən azı seçilmiş tapşırıq bəzi tələbələrin istəklərinə uyğun olmalı;

d) Anlaşıqlılıq, sadəlik – tapşırığı yerinə yetirmək qədər onu izah etmək də asan olmalı;

e) Şəxsi uyğunluq – müəllimin öyrətmə metododuna uyğun, məqsədinə xidmət edən tapşırıqlar seçilməlidir.

Ümumiyyətlə, ADBTİA-da xarici dil dərslərində model əsasında yazının tədrisində müəllim tələbələrin müstəqil formada yazmasına başlamadan əvvəl onlara başlanğıc kimi nümunə təqdim edir, tələbələrdən nə gözlədiyini və yazının məzmununu əyani şəkildə göstərir. Bu zaman tələbələrə hazır mətni əldə etmək üçün hansı mərhələlərdən keçildiyini də izah etmək olduqca vacibdir. Daha sonra isə onlar nümunəyə əsaslanaraq müstəqil formada yazmağa başlayırlar. [3].

**Ədəbiyyatlar:**

1. Penny Ur. A course in language teaching Practise and theory, 2008
2. Jeremy Harmer. How to Teach English 2nd Edition, 2010
3. fluentlanguage.co.uk/blog/techniques-speaking-writing-foreign-language, 2011
4. https://www.fluentu.com/blog/writing-in-a-foreign-language



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.